***Hazırda biz münaqişədən sonrakı inkişaf vəziyyətindəyik. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Bununla bağlı danışıqlar aparası heç nə yoxdur. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat bəzi beynəlxalq siyasətçilərin təqdim etməyə çalışdığı kimi, təkcə atəşkəs razılaşması deyil. Bu sənədə baxan hər kəs görəcək ki, o, təkcə atəşkəslə bağlı deyil, bir çox başqa məsələlərlə bağlıdır. Biz postmünaqişə vəziyyəti barədə düşünməliyik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Xarici diplomatlar erməni vəhşiliyinin hər üzünü gördülər

***Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən ölkəmizdəki diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin Şuşaya növbəti səfəri baş tutub və səfər iyulun 10-da başa çatıb. Bu dəfəki səfərdə 50-dək ölkənin, o cümlədən, Türkiyə, Pakistan, İtaliya, Avstriya, İsveç, Polşa, İsrail, Çin, Yaponiya, Malayziya, Cənubi Koreya, Belarus, Ukrayna, Braziliya, Meksika, Səudiyyə Ərəbistanı, Qətər, Əlcəzair və digər ölkələrin səfirləri, həmçinin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri iştirak ediblər.***





Artıq məlumat verdiyimiz kimi, səfər çərçivəsində diplomatlar və beynəlxalq təşkilatların təmsilçiləri iyulun 9-da Füzuli Beynəlxalq Hava Limanının tikintisi və "Füzuli" yarımstansiyası ilə tanış olublar. Sonra Şuşaya yol alan qonaqlar Saatlı, Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərində, tarixi Şuşa Bəyannaməsinin imzalandığı ərazidə və qədim Mərdinli məhəlləsində olublar. Şəhərin mərkəzi meydanında Azərbaycan mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət edib, Pənahəli xanın sarayının qalıqları olan əraziyə, Mehmandarovların malikanə kompleksinə, Qazançı kilsəsinə baxıblar. Səfər iştirakçılarının Şuşada son dayanacağı Cıdır düzü olub. Onlar Cıdır düzündən açılan gözəl mənzərəni seyr ediblər. Burada qonaqlar üçün çay dəsgahı təşkil olunub.

Xarici ölkələrin diplomatları işğaldan azad edilmiş ərazilərimizdə ermənilər tərəfindən törədilmiş dağıntıları, vandalizm aktlarını öz gözləri ilə görüb, Azərbaycan dövləti tərəfindən aparılan abadlıq-quruculuq və təmir-bərpa işləri barədə ətraflı məlumatlandırılıblar.

Qeyd etməliyik ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpus rəhbərlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin Şuşaya səfər etməsi həm həmin ərazilərdə vəziyyətin öyrənilməsi, həm də əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət daşıyır. Xarici diplomatlar bundan əvvəlki səfərləri zamanı Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Qubadlı və Ağdamda olmuşdular. Bu dəfə isə onlar Şuşanı ziyarət ediblər və növbəti dəfə əyani şəkildə görüblər ki, erməni qəsbkarları 30 illik işğal dövründə hansı vandallıq aktları, necə vəhşiliklər törədiblər, Azərbaycan xalqının maddi və mənəvi irsinə qarşı hansı talan və terror siyasətini həyata keçiriblər.

Açıq deməliyik ki, diplomatlar hər dəfə bu cür səfərlər zamanı, sözün həqiqi mənasında, heyrətə gəldiklərini, ermənilərin əsl simasını daha aydın gördüklərini etiraf ediblər. Onlar da bildiriblər ki, bu torpaqlar ermənilər üçün yaddır, əgər doğma olsaydı, bu ərazilərdə bu qədər vandallıq törədilə bilməzdi. Ermənilər 30 ildə burada daşı daş üstə qoymayıblar, hər şeyi dağıdıblar, talan ediblər, oğurlayıblar. Bu vəhşi qəbilə hətta cansız heykəlləri belə güllələbaran etməkdən çəkinməyib. Diplomatları ən çox heyrətləndirən, şübhəsiz ki, Azərbaycan xalqına aid məzarların dağıdılması, məscidlərin təhqir, muzeylərin, kitabxanaların talan edilməsidir.

Səfər zamanı Azərbaycan mediasının diqqətini cəlb edən məqamlardan biri Şuşaya səfər edən xarici diplomatlar arasında bəzi ölkələrin, xüsusilə uzun müddət ATƏT-in Minsk qrupunda həmsədrlik missiyasını həyata keçirmiş dövlətlərin nümayəndələrinin olmaması idi. Amma onlar hamıdan öndə olmalı, çox zaman müdafiə etdikləri ermənilərin məhfur əməllərini öz gözləri ilə görməli, fikirlərində haqqa, ədalətə doğru dönüş yaratmalı idilər. Amma onlar bu səfərdə iştirak etməyərək, ilk növbədə, öz nüfuzlarına zərbə vurmuş oldular.

Təbii ki, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı tarixi qələbə haqqında dünya ictimaiyyətində kifayət qədər məlumat var. Bəzi ölkələrin, xüsusən Fransanın Azərbaycandakı diplomatları bu səfərə qoşulmasalar da, təmsil etdikləri ölkələrdə insanlar Azərbaycan Ordusunun rəşadətindən xəbərdardırlar. Erməni diasporunun, onlara havadarlıq edən ölkələrin və siyasətçilərin təsiri altında bəzi ölkələrdə Azərbaycana qarşı qərəzli və təhrif olunmuş informasiyalar yayılsa da, artıq dünyada bunların dezinformasiya xarakteri daşıdığını bilməyən yoxdur. Bununla belə, Azərbaycan əsl həqiqəti göstərmək, beynəlxalq ictimaiyyəti erməni vəhşiliyi barədə yerindəcə məlumatlandırmaq məqsədilə ölkəmizdəki diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfərlərini təşkil edir. Diplomatlar görürlər ki, bu torpaqların əsl sahibi olan Azərbaycan Vətən müharibəsindən keçən qısa müddət ərzində bərpa işlərinə başlayıb. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələri reallaşdırılır, ekoloji təmiz enerjinin əldə edilməsi istiqamətində geniş fəaliyyət göstərilir. Erməni vandalizminə qarşı Azərbaycanın bərpa işlərini uğurla həyata keçirdiyini görən xarici diplomatlar əmin olurlar ki, Qarabağın əsl sahibi həqiqətən də bizik, Azərbaycan xalqıdır.

Azərbaycan Ermənistana regionda yeni inteqrasiya imkanları təqdim edir, erməni xalqının gələcəyi üçün daha yaxşı perspektivlər vəd edir. 3+3 formatında əməkdaşlıq Ermənistan da daxil olmaqla bütün ölkələr üçün sosial-iqtisadi inkişaf vəd edir.

Xarici diplomatlar Qarabağdakı, Şuşadakı dağıntıları görməkdən, həqiqətən, mütəəssir olduqlarını bildiriblər. Fələstinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim deyib ki, bu dağıntılar böyük təəssüf doğurur. Onun sözlərinə görə, on illiklər ərzində Qarabağ torpağında törədilən dağıntıları görmək məyusedicidir: "Arzu edirəm ki, musiqi beşiyi olan Şuşada hər zaman sülh hökm sürsün. Azərbaycanlılar, o cümlədən şuşalılar daha müharibə, dağıntı görməsinlər. Şuşa daim çiçəklənsin, inkişaf etsin. Əminəm ki, qısa zaman ərzində Şuşanın infrastrukturu, tarixi və mədəni abidələri bərpa ediləcək, şəhərdə həyat öz axarına qayıdacaq".

Mərakeş Krallığının ölkəmizdəki səfiri Adil Embarş isə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərini sürətlə apardığına diqqət çəkib: "Azərbaycan xalqına Qarabağda təhlükəsiz şəraitdə yaşamağı arzulayıram. İşğaldan azad olunmuş ərazilərdə törədilən dağıntıların miqyasını gördük. Bu ərazilərin bərpası üçün işlərə artıq başlanılıb. Məscidlər, kilsələr təmir olunur. Bu, həmçinin Azərbaycan multikulturalizminin ən bariz nümunəsidir".

Bölgədə tərəqqi üçün sülhə ehtiyac olduğunu vurğulayan diplomat Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin onda məmnunluq doğurduğunu qeyd edib.

İsrail Dövlətinin Azərbaycandakı səfiri Corc Dik ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəklədiyini və bunun öz gücümüzlə bərpasından çox şad olduğunu bəyan edib. Səfir deyib ki, Şuşada olmaq onun üçün böyük şərəfdir: "2019-cu ilin sonunda Azərbaycana gələndə düşünməzdim ki, belə tezliklə Şuşada ola bilərəm. Bu gün biz buradayıq. Şuşada olmağıma, bu tarixi şəhərə səfər etməyimə görə çox şadam".

Tacikistanın fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyev isə söyləyib ki, Şuşa Azərbaycan mədəniyyətinin beşiyidir. Bu şəhərdə hər şey gözəldir. Şuşanın təbiəti, relyefi, qədim memarlıq abidələri insanı valeh edir. Azərbaycan hökumətinin apardığı quruculuq işləri sayəsində Qarabağda yeni həyat başlayıb. Bu canlanma Şuşada daha çox hiss olunur.

Qətərin ölkəmizdəki səfiri Feysal ibn Abdullah Hamad əl Hinzab da Azərbaycanın tarixi və mədəniyyət paytaxtı Şuşada olmaqdan məmnunluğunu, yol boyu şahidi olduğu tikinti-quruculuq işlərinin gedişindən sevindiyini bildirib. Səfir əmindir ki, Azərbaycan dövlətinin sürətlə apardığı tikinti-quruculuq işləri nəticəsində Qarabağ tezliklə cənnətə çevriləcək.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***